

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 167 (21.068)

3 sentyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 54 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Dövlətimizin başçısına 54 nömrəli tam orta məktəbdə görülən işlərlə bağlı məlumat verildi.

Qeyd edildi ki, bu məktəbin binası 1976-cı ildə inşa olunub. Üçmərtəbəli bina iki korpusdan ibarətdir. 56 sinif otağı olan məktəb 1076 şagird yerlikdir. Yeni dərs ili ərəfəsində 54 nömrəli tam orta məktəbin binası əsaslı şəkildə yenidən qurulub.

Dövlətimizin başçısı sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri, Alman Mərkəzi Sənətkarlar Birliyinin keçmiş baş katibi, sabiq dövlət katibi Hans-Eberhard Şlayerin, Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Karin Ştrentsin, "Almaniya-İsrail Cəmiyyəti"nin sədri Raynold Robbenin, Alman-Azərbaycan Forumunun baş katibi, keçmiş dövlət katibi Mixael Andreas Butsun və "Almaniya İqtisadiyyatının Şərq Komitəsi"nin icraçı direktoru Rayner Lintnerin daxil olduğu Almaniya nümayəndə heyətini qəbul edib.



# Müstəqilliyin əsas dayağı: Naxçıvan



***XX əsrin doxsanıncı illərinin əvvəllərində görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifələrini təşkil edir. Ulu öndər Heydər Əliyev, sözün həqiqi mənasında, Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan bu qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə meydan açmışdır. Ümummilli lider Heydər Əliyevin xalq deputatı kimi Bakıdakı və Naxçıvandakı fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar Azərbaycan parlament tarixinin də nadir hadisələridir.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir. Dünyanın iki nəhəng super dövlətindən biri kimi tanınan Sovetlər İttifaqının əsas başçılarından biri olmuş, uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş Heydər Əliyev üçün, ilk baxışda, muxtar respublika səviyyəsində dövlət qurumunun Sədri seçilmək çox da mühüm bir vəzifə olaraq nəzərə çarpmır. Sovet Sosialist Respublikaları İttifaqının rəhbərliyindən, Kremlin zirvəsini fəth etdikdən sonra muxtar respublikanın başçısı vəzifəsinə gəlmək geriyə dönüş kimi də dəyərləndirilə bilərdi. Zamanında yanlış olaraq bəzən belə düşünənlər də olmuşdu. Əslində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilmək Vətənə və xalqa xidmət etmək baxımından mənalı olduğu qədər də keşməkeşli ömür yaşamış Heydər Əliyevin zəngin tərcümeyi-halının ən əhəmiyyətli hadisələrindən biri sayılmağa layiqdir.

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, XX əsrin doxsanıncı illərinin başlanğıcında Heydər Əliyev kimi zəngin təcrübə və səriştə sahibi olan görkəmli bir dövlət xadiminin yenidən hakimiyyətə, böyük siyasətə qayıdışı Azərbaycan xalqının taleyi ilə bağlı olan tarixi hadisə kimi böyük əhəmiyyət kəsb edir. Hadisəyə keçən əsrin səksəninci illərinin sonu və doxsanıncı illərinin başlanğıcı dövrünün ictimai-siyasi proseslərinin müstəvisindən baxsaq, xalqımızın və ölkəmizin taleyi üçün təcrübəli və səriştəli siyasi liderin nə dərəcədə əhəmiyyətli olduğu qabarıq nəzərə çarpar. Keçən əsrin səksəninci illərinin ortalarından sonuna qədərki dövrün bir-birini tez-tez əvəz edən kommunist rəhbərləri Heydər Əliyevin siyasi hakimiyyətindən sonrakı dövrün boşluğunu doldurmaq gücündə ola bilmədilər. Onlar nə iş yerini dəyişən Siyasi Liderin səviyyəsinə yaxınlaşa biləcək, nə də mövcud mürəkkəb zamanın gedişatına təsir göstərəcək qüvvələr deyildilər. Doxsanıncı illərin əvvəllərində zamanın dalğasında yeni simalar kimi görünən AXCP-Müsavat hakimiyyətinin nümayəndələrinin isə nə siyasi təcrübəsi və səriştəsi, nə də normal idarəçilik qabiliyyətləri var idi. Sözün böyük mənasında, Azərbaycan ölkəsinin geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan güclü dövlət xadiminə ciddi ehtiyacı var idi. Nə kommunist rəhbərlərin arasında, nə də cəbhəçi bəylərin sıralarında yeni tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, sovetlər ittifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur görünmürdü. Vəziyyət isə çox mürəkkəb idi. XX əsrin səksəninci illərinin ikinci yarısından sonra başlanan hakimiyyət böhranı zaman-zaman ölkəni zəiflətmişdi. Sovet dövlətinin dağılması nəticəsində isə digər keçmiş müttəfiq respublikalar kimi, bəzilərindən isə daha çox, Azərbaycan Respublikası çoxcəhətli böhranın dərinləşməsi dövrünü yaşamaqda davam edirdi. Xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yaranmışdı. Ara-sıra Azərbaycanın parçalanacağı, regionların müxtəlif ölkələr arasında bölüşdürüləcəyi barədə mülahizələr səslənməkdə idi. Belə fikirlər Naxçıvan Muxtar Respublikası ətrafında da mövcud idi. Üstəlik də blokada şəraiti ölkənin bu regionunda vəziyyəti daha da çətinləşdirmişdi. Bütün bunlar az imiş kimi, keçən əsrin səksəninci illərinin axırlarından etibarən Azərbaycan iqtidarındakı sol və sağ təmayüllü rəhbərlərin, demək olar ki, hamısı Naxçıvan Muxtar Respublikasına ögey münasibət bəsləmişdilər. Onlardan bəziləri Naxçıvanı "acı bağırsaq kimi kəsib atmaq", bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan tərəfdən də siyasi-hərbi təzyiqlər qüvvətlənməkdə davam edirdi. Ölkədə hakimiyyət böhranı, ictimai-siyasi mühitdə dərin bir boşluq var idi.

Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, ərazi bütövlüyünü qorumaq üçün əsl mərdliklə fədakarlıqlar nümayiş etdirirdi. Hətta xalq kütlələrinin tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 19 yanvar 1990-cı il tarixdə "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirə edərək muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsinə dair radikal addım atmalı olmuşdu. Bu, sovetlər ittifaqının monolitliyi, dağılmazlığı haqqında mifi sındıran ilk böyük hadisə kimi beynəlxalq aləmdə geniş əks-səda doğurmuşdu. Bundan əvvəl isə 1989-cu il dekabrın 30-31-də muxtar respublikanın əhalisi Ordubaddan Sədərək kəndinədək olan 150 kilometrdən çox ərazidə sovet-İran sərhədindəki dirəkləri sökmək və tikanlı məftilləri dağıtmaqla sovetlər ittifaqı adlanan dövlətə gözlənilməz ağır zərbə vurmuşdu.

Bunların əvəzində həm mərkəzi hökumət, həm də mərkəzin diktəsi ilə Azərbaycanın yerli hakimiyyət orqanları Naxçıvan camaatına və muxtar respublikanın hakimiyyət orqanlarına təzyiq göstərirdi. Kreml rəhbərliyi Ermənistan ordusuna dəstək verməklə Naxçıvana qarşı həmlələri genişləndirirdi. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş, təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə və M.F.Axundov adına Naxçıvan seçki dairəsindən muxtar respublikanın Ali Sovetinə deputat seçilməsi, geniş mənada, xalq arasında ölkənin gələcəyinə ümid qığılcımları yaratmışdı. Azərbaycanın hər tərəfindən Heydər Əliyevin Naxçıvan şəhərindəki ortabab səviyyəyə malik, təmirsiz ata ocağına ölkə vətəndaşlarının axını, bu böyük tarixi şəxsiyyətlə olan qeyri-adi isti, doğma münasibəti ifadə edən görüşlər, ünvanına ölkənin müxtəlif regionlarından göndərilən ümid dolu məktublar və teleqramlar ulu öndərə bəslənilən ümumxalq sevgisini və inamını qabarıq şəkildə ifadə edirdi. Görkəmli dövlət xadimi Heydər Əliyevlə Naxçıvan şəhərində keçirilən izdihamlı görüşlərdə və mitinqlərdə ölkəmizin dörd bir yanından gəlmiş sadə, zəhmətkeş, sədaqətli insanların iştirakı bütövlüyün, milli-mənəvi birliyin, sarsılmaz inamın əyani göstəricisi idi.

Bu mənada dahi rəhbər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi, ümumiyyətlə, Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Bu, Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi, gələcəyə inamının artması baxımından da böyük dönüş idi. Xalqımız əmin idi ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Bu hadisə Dağlıq Qarabağ ətrafında torpaqların itirilməsi prosesinin tez-tez müşahidə olunduğu ağır bir vaxtda xalqda, bütövlükdə, ölkənin ərazi bütövlüyünün bərpa olunacağına da ümid işartıları yaratmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclaslarında ölkənin müxtəlif bölgələrindən gəlmiş rəsmi qurumların nümayəndələrinin, haqları tapdanmış sadə, zəhmətkeş insanların iştirak edib, özlərinin mövcud vəziyyətləri barəsində dəqiq məlumatları verərək çıxış yolları barədə məsləhətlər almaları, dəstək görmələri Ali Məclisi Azərbaycan xalqının ümid qapısına çevirmişdi. Ümumiyyətlə, görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə Heydər Əliyevin iş otağında yanan sadə çıraqdan bütün Azərbaycana işıq düşürdü.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali dövlət orqanının Sədri vəzifəsinə seçilmişdi. Fövqəladə sessiyanın çağırılması zərurəti haradan, nədən doğmuşdu? Əvvəla, 1991-ci ilin avqust ayında SSRİ hökumətində Mixail Qorbaçov iqtidarına qarşı dövlət çevrilişi cəhdi baş vermişdi. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi sovetlər ittifaqında özünü müvəqqəti, yaxud keçid hökuməti kimi elan etmiş qısamüddətli Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyətinə müsbət münasibət ifadə etdikdən az sonra həmin qurumun dağılması ilə mürəkkəb vəziyyətə düşmüşdü. Bundan başqa, Sovet İttifaqı Kommunist Partiyasının dağılmasına baxmayaraq, Azərbaycanda hələ də bu partiyanı saxlamaq üçün edilən cəhdlər, atılan addımlar ölkə miqyasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında birmənalı qarşılanmırdı. Çünki Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1991-ci ilin 14 yanvarında keçirilən sessiyasında Azərbaycan rəhbərliyinin iradəsindən kənarda və ondan asılı olmayaraq, Mixail Qorbaçov tərəfindən elan olunmuş yeni ittifaq müqaviləsinin qəbul edilməsinin yolverilməzliyi haqqında qərar qəbul etmişdi. Bundan başqa, xalq deputatı Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Ali Məclisin 1991-ci il 26 avqust tarixli sessiyasında Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Təşkilatını buraxmaq məsələləri də müzakirəyə çıxarılaraq müsbət rəy qazanmışdı. Faktiki olaraq Naxçıvan Muxtar Respublikasında Sovet hakimiyyəti yox idi. Bir qədər əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 1990-cı il 17 noyabr tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün olmuşdu.

Ardı 2-ci səhifədə

Eyni zamanda həmin sessiyada ulu öndər Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da, sadəcə, redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada sovet ittifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikası Ali Soveti formatında "Soveti" ifadəsinin "Məclisi" sözü ilə əvəz edilməsi, əslində, tam mənası və məntiqi ilə de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən xalqımızın böyük oğlu Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət bayrağı Ali Məclisə gətirilmişdi. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, yüksək Azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilə bilmişdi. SSRİ adlanan dövlətin bütün müttəfiq qurumlarında demokratik islahatlar adı altında dağılma prosesi getsə də, o dövrə qədər sovetlər ittifaqının heç bir respublikasında Naxçıvanda atılan addımlara yaxın bir hadisə baş verməmişdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli sessiyası sovet dövlətinin dağılmasının birinci paroludur.

Bu, otuz beş il dövlət hakimiyyətində olmuş böyük siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı böyük tarixi xidmətidir. Ulu öndər Heydər Əliyev Azərbaycan milli dövlətçiliyinin əfsanəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli sessiyasına sədrlik etmək Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizəyə rəhbərlik etmək demək idi. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın milli istiqlalının rəhbəri missiyasını şərəflə həyata keçirmiş tarixi şəxsiyyətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 3 sentyabr tarixli fövqəladə sessiyasının çağırılması ölkədə, o cümlədən regionda yaranmış çətin və mürəkkəb fövqəladə vəziyyətin tələblərindən irəli gəlmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının gündəliyinə, geniş mənada, həmin tarixi mərhələnin aktual məsələləri, xüsusən də ölkə miqyaslı, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Çünki həmin dövrdəki şəraitdə antidemokratik şəkildə alternativsiz əsasda prezident seçkilərinin keçirilməsi mərkəzin diktəsi ilə ölkədə gedən demokratik proseslərin ləngidilməsinə, müstəqillik uğrunda azadlıq mübarizəsinin boğulmasına hesablanmış tədbir idi. Bu, doğrudan da, münasibət tələb edən məsələ idi. Eyni zamanda gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası Təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Hətta gündəlikdə öz əksini tapmış vilayət partiya təşkilatının əmlakının inventarizasiyasının aparılması üçün komissiyanın yaradılması məsələsinin həllini arzu etməyən bəzi qüvvələr də var idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin hamısı fövqəladə zamanın meydana çıxardığı aktual problemlər idi, Azərbaycan üçün taleyüklü məsələləri əhatə edirdi. Bu problemlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının Sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarəti və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, böyük siyasətçi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin seçilməsini qətiyyətlə tələb edirdi. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan Heydər Əliyevin seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin sessiyanın keçirilməsinə qədərki mərhələdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, muxtar respublika Ali Məclisinin üzvü kimi ölkədə, o cümlədən regionda gedən ictimai-siyasi proseslərdə öz sözünü deyən, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən özünü bütövlükdə dövlət müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş, Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını bildirmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da O, dörd dəfə çıxış edərək namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdir.

3 sentyabr 1991-ci il tarixli çıxışı göstərdi ki, o zaman Heydər Əliyevin hakimiyyətə gəlmək üçün Azərbaycana qayıtdığını düşünən qüvvələr nə qədər böyük səhv edirmişlər. Vaxtilə Heydər Əliyev bu məsələyə aydınlıq gətirmək üçün çıxışlarından birində demişdi: ***"Mən hələ keçən il (yəni 1990-cı ildə – İ.H.) Moskvadan Azərbaycana gələrkən jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərkən və nəhayət, son sessiyada bildirmişəm ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən xalqımın hər bir tapşırığını yerinə yetirməyə hazıram".***

Xalqın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təkidi ilə Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verməli olmuşdu. Bu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli sessiya idi. Belə ki, Naxçıvan şəhərində 3 sentyabr 1991-ci il tarixdə öz işinə başlayan sessiyanın iclasları 5 gün ərzində davam etdirilmiş, ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur. Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, həlelik, ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan Muxtar Respublikası ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda 3 sentyabr 1991-ci il sessiyasında "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə olunaraq Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumların fəaliyyəti dayandırılsın. Bundan başqa, sessiyada Naxçıvanda partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdir. Bunlar Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçiliyin bərqərar olmasına xidmət edən tarixi qərarlardır. Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması, sadəcə, həmin tarixi günün faktı olaraq qalmır. Heç şübhəsiz, əgər Heydər Əliyev xalqın təkidi və tələbi ilə 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsəydi, Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən proseslərin məcrası, kim bilir, hansı səmtə yönələcək, necə böyük və qanlı labirintlərdən keçməli olacaqdı.

Bu, xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu, Azərbaycanda tarixi gedişatın əsaslı dönüş məqamı idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 1991-ci ilin iyununda rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmış Heydər Əliyev ölkə tarixində ilk dəfə olaraq bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilmişdi. Və yenə də görkəmli dövlət xadimi Heydər Əliyevin Sədri olduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında Azərbaycanın o vaxta qədərki tarixində birinci dəfə idi ki, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumu fəaliyyətə başlamışdı. Siyasi gedişatın dönüşünü şərtləndirən bu tarixi məqamlar ölkəmizi müstəqil dövlətçiliyə aparan çətin və keşməkeşli yollara işıq salan, ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən hadisələrdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü hərbi-siyasi tədbirlər sayəsində sovet ordusu hissələri dinc yolla muxtar respublikanın ərazisindən çıxarıldı. Ölkənin bu regionunun xarici ölkələrlə olan sərhədlərini Naxçıvanda yaradılmış milli ordunun əsgərləri qorumaq şərəfi qazandılar. Həmin dövrdə düşünülmüş genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası kənardan böyük dəstək alan Ermənistanın işğalından xilas olmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi haqqındakı 1991-ci il 16 dekabr tarixli dərin məzmunlu qərara da Heydər Əliyev imza atmışdır. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı böhranın aradan qaldırılmasında, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynamışdır. Azərbaycanda ilk dəfə olaraq sosialist təsərrüfat sistemi ləğv edilmiş, torpaq islahatları və özəlləşdirmə tədbirləri həyata keçirilmişdir. Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Naxçıvan Muxtar Respublikası ərazisindəki Sədərək-Dilucu – "Ümid körpüsü"nün 1992-ci il mayın 28-də istifadəyə verilməsi ilə ölkələr arasında çoxcəhətli əlaqələrin yeni mərhələsi başlanmışdır. Ulu öndər Heydər Əliyev Naxçıvanda ikən, 1992-ci il noyabrın 21-də yaradılmış Yeni Azərbaycan Partiyası ölkənin sonrakı inkişafında mühüm rol oynamışdır. Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyət göstərdiyi tarixi mahiyyət daşıyan mərhələ (1993-2003) ölkəmizdə müstəqil dövlətçiliyin yaradılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrüdür. Bu, çətin, mürəkkəb, məsuliyyətli və tarixi epoxada müstəqil Azərbaycan dövlətinin böyük qurucusu olmuş Heydər Əliyev özünün adı və yorulmaz mübarizəsi ilə bağlı olan yeni bir epoxa yaratmışdır. Heydər Əliyev epoxası Azərbaycanın xilası və inkişafı dövrünün epoxasıdır. Heydər Əliyev epoxası Azərbaycanda müstəqil dövlətçiliyin böyük təməllərinin, möhkəm əsaslarının yaradıldığı epoxadır. Dünya birliyində Azərbaycan ölkəsinin layiq olduğu şərəfli yerin qazanılması da Heydər Əliyev təliminin bəhrəsidir. Heydər Əliyev yolu Azərbaycanı böyük gələcəyə aparan möhtəşəm magistraldır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə Heydər Əliyev milli dövlətçilik təliminin dönməzliyini, davamlılığını, yaradıcı şəkildə inkişaf etdirilməsini təmin etməklə xalqımızın və dövlətimizin tarixində yeni bir epoxa yaratmağa nail olmuşdur. Möhkəm dövlətçilik, üstəgəl geniş miqyaslı quruculuq, müasirləşdirmə və modernləşdirmə, üstəgəl tarazlaşdırılmış siyasət və analitik təhlil, bərabərdir İlham Əliyev demək mümkündür. Yenidən qurulmuş və modern inkişaf səviyyəsinə çatdırılmış müasir Azərbaycan tam mənası ilə Prezident İlham Əliyevin möhtəşəm əsəridir. Aparılan böyük siyasətin sayəsində regionların inkişafı proqramının düşünülmüş və məqsədyönlü həlli ilə Azərbaycanda bütün bölgələrin bərabər və yüksək inkişafına nail olunmuşdur. Nəticədə, qısa müddətdə dünyanı heyran qoyan yeni, modern və möhtəşəm Azərbaycan yaradılmışdır. Yeni tarixi epoxada Naxçıvan Muxtar Respublikasında da böyük inkişafa nail olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin digər regionları kimi, Naxçıvan Muxtar Respublikasına olan səfərləri hər dəfə qədim diyarın müstəqil dövlətimiz qarşısında böyük xidmətinə çevrilir. Ümummilli liderimiz Heydər Əliyevin tarixin çətin sınaq məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişafının proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası hazırda ulu öndərin adına və arzularına layiq şəkildə, böyük sürətlə inkişaf edir. Naxçıvan Şərqin qapısından Qərbin modern inkişafının yüksək səviyyəsinə doğru inamla addımlayır. Naxçıvan milli tarixi ənənələri yaradıcılıqla inkişaf etdirib saxlayan və qərbyönlü inkişafın əsas meyillərini özündə cəmləşdirən günəşli diyardır. Bu gün Naxçıvan inkişaf etmiş şərqyönlü Qərb şəhəri kimi dünyaya açılır. Naxçıvan ölkəmizin qərb sərhədlərində ucalan Şərq tipli Azərbaycan qalasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin Ali Məclisə rəhbərlik etdiyi dövrdən sonrakı iyirmiillik dövr ərzində Naxçıvan Muxtar Respublikasının əldə etdiyi böyük nailiyyətlər müstəqil ölkəmizdə ulu öndərin adı ilə bağlı olan siyasətin real təntənəsini əks etdirən böyük bir hesabatdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ulu öndər, ustad rəhbər qarşısında Böyük Anddan yoğrulmuş dövlətçiliyə sədaqətlə xidməti və yorulmaz, çoxcəhətli fəaliyyəti Azərbaycanda müstəqillik dövrü milli dövlətçilik məktəbinin əsas göstəricilərindən, mühüm nəticələrindən biridir. Ötən hər il Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ölkəmizin ərazi bütövlüyünün qorunub daha da möhkəmləndirilməsinə, milli dövlətçiliyin inkişaf etdirilməsinə, quruculuq proseslərinin genişləndirilməsinə özünün sanballı töhfələrini bəxş etməklə müstəqil dövlətimizin müasir mərhələdəki sürətli yüksəlişinə bir daha qüvvət və təkan verir.

Göründüyü kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin iyirmi üç il bundan qabaq, 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan tarixinin mühüm və əlamətdar hadisəsidir. Məhz bu böyük siyasi hadisə ilə ölkəmizdə tarixi gedişatın istiqaməti qəti şəkildə müəyyən olunmuş, müstəqil dövlətçilik uğrunda mübarizənin möhkəm və əsaslı təməlləri atılmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin böyük siyasətdə və möhtəşəm quruculuq proseslərində atdığı ciddi və əhəmiyyətli addımlar vaxtilə etibarlı bünövrəsi qoyulmuş müdrik siyasətin yeni tarixi şəraitdə yaradıcılıqla və sürətlə inkişaf etdirilən uğurlu davamının parlaq və əyani göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ölkə qarşısında bu diyarda gedən möhtəşəm quruculuq işlərinin böyük hesabatı idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtariyyətin keçdiyi çətin və şərəfli yolu beş tarixi mərhələ üzrə dövrləşdirib təqdim etməsi və hər mərhələnin özünəməxsusluqlarının ictimai-siyasi qiymətini verməsi bu böyük dövrü tam, bütöv şəkildə ümumiləşdirməyə əsas verir. Fikrimizcə, Naxçıvanın muxtariyyət tarixinin müstəqillik illərinə aid olan dövründə baş verən inkişaf son bir əsrə yaxın dövrdə əldə edilənlərdən qat-qat üstündür. Blokada şəraitinə baxmayaraq, Naxçıvan 1991-ci ildən sonrakı 23 illik müddətdə bir neçə əsrin inkişaf yolunu keçmişdir.

***Naxçıvan Muxtar Respublikasının görkəmli dövlət xadimi Heydər Əliyev siyasətinin işığında qazandığı nailiyyətlər Azərbaycan miqyasında regional inkişafın ümumi səviyyəsindən yuxarı olub, paytaxt göstəriciləri ilə müqayisə oluna bilər. Geniş mənada, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı Avropanın inkişaf etmiş dövlətlərinin regionları səviyyəsindədir, hətta bəzi parametrlərinə görə üstündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 90 illik yubiley günlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada baş vermiş böyük dəyişikliklərə, aparılan möhtəşəm quruculuq işlərinə verdiyi qiymət intibahın yeni mərhələsinin dövlət səviyyəsində yüksək şəkildə qiymətləndirilməsini nümayiş etdirir. Bütün bunlar Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyev yolunun Naxçıvan reallıqlarıdır. Heydər Əliyev Günəşi, bütövlükdə, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının böyük sabahlara gedən yollarına gur işıq salır.***

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

*Tanıdıqlarımız haqqında bilmədiklərimiz*

# Uzaq düşən gəmilərin kapitanları – Şahtaxtlılar

***Deyirlər ki, Naxçıvanda üç Şahtaxtı var. Biri nə zamansa Eldəgizlər taxtının və xəzinəsinin qorunaraq saxlanıldığı Əlincənin zirvəsindədir, ikincisi Cəhri kəndi ərazisində Nadir şahın bir vaxtlar qoşununa müraciət etdiyi məkandır, üçüncüsü isə Kəngərli rayonu ərazisində yerləşən Şahtaxtı kəndidir. Bu kənd Xətainin şahlığa gedən yolda son qüdrətli qələbəsini qazandığı yerdir. Başqa sözlə desək, Şərur döyüşündən sonra gələcək Səfəvi sarayının diplomatları da, sərkərdələri də, mədəniyyət xadimləri də, təbibləri də bura yığışmışdı. Bəlkə, elə bu səbəbdəndir ki, sonradan bu kiçik kənd Azərbaycana görkəmli diplomatlar, sərkərdələr, hakimlər, ədiblər bəxş etdi.***

Deyilənə görə, Şahtaxtılılar nəslinin kökləri əfsanəvi Çingiz xana, Hülakü xana gedib çıxır. Onun şərəfli tarixi yüz illər boyu nəsildən nəslə ötürülməkdədir. Hər zaman ata-baba yurdları ilə öyünən şahtaxtlıların ağsaqqalı Hacı Vəli ağanın vaxtilə İrəvan qubernatoruna verdiyi cavab indi də hamının yadındadır: *“Bizim təzə familiya qəbul etməyə ehtiyacımız yoxdur. Biz 500 ildən artıqdır ki, Şahtaxtlı familiyasını daşıyırıq”.* 1859-cu ildə aparılan siyahıyaalmada onlar bəy kimi qeyd olunmaqla ulu babalarının da zadəgan olduğu təsdiqlənir. Şahtaxtıların Qazaxlar tayfasına mənsubluğunu və ulu babalarının Ağacir ağanın varisləri olduqları qeyd edilməklə o da bildirilir ki, bu nəsildən indiyədək heç kim bəylik hüququndan məhrum edilməyib.

Bu qədim nəslə, eləcə də bütün Azərbaycana şöhrət gətirən Şahtaxtılılar çoxdur: xaricdə təhsil almış ilk azərbaycanlı qadın Leyla Şahtaxtinskaya, ilk azərbaycanlı qadın həkim-ginekoloq və elmlər doktoru Adilə Şahtaxtinskaya, Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətləri olan diplomat, ictimai xadim Behbud ağa Şahtaxtinski, publisist, təbiətşünas alim, ictimai xadim İsasultan Şahtaxtinski (1851-1894), çar ordusunun polkovniki Əbülfət ağa Şahtaxtinski (1858-1913), tanınmış ziyalılardan Çingiz Yurtçu Şahtaxtinski (1898-1961), jurnalist, ensiklopedist-lüğətşünas, tərcüməçi, maarifpərvər Cəbrayıl Rzaquliyev (1910-1974), tanınmış ziyalılardan Baxşəli ağa Şahtaxtinski, akademik Toğrul Şahtaxtinski, xalq rəssamı Elmira Şahtaxtinskaya və daha kimlər, kimlər... Xalq rəssamı Oqtay Sadıqzadə həyat yoldaşı Elmira Şahtaxtinskaya haqqında xatirələrində yazır: *“Hər ikimiz Bakıda doğulub-böyümüşdük. Mən 1921-ci ildə İçərişəhərdə dünyaya göz açmışam. Hər daşından, divarından qoca tariximizin boylandığı o əyri-üyrü küçələrdə yıxıla-dura yerimək öyrəndim. Elmiranın təvəllüd tarixi isə 1930-cu ildir. Onun uşaqlıq illəri Hökumət evilə üzbəüz yerləşən, “Alimlər evi” adlanan binada keçib. Elmira əslən naxçıvanlıdır. Babalarının özlərinə soyad kimi götürdüyü doğma yurdları Şahtaxtı Azərbaycanın ən qədim yaşayış məskənlərindəndir. Şahtaxtılılar nəsli Azərbaycana neçə-neçə məşhur övlad bəxş edib...”*

### Dövlət Dumasının üzvü

Belə bir yurdun və belə bir nəslin şərəfli davamçılarından olan Məhəmməd ağa Şahtaxtlı (Şahtaxtinski) ilk təhsilini Naxçıvan şəhər məktəbində aldıqdan sonra 1863-cü ildə Tiflis klassik kişi gimnaziyasına daxil olur. Daha sonra Peterburqa üz tutaraq orada alman dilini öyrənir, sonra Almaniyanın Leypsiq Universitetində fəlsəfə, tarix və hüquq elmlərinə yiyələnir. 1869-cu ildə həmin universiteti bitirib Parisə gələn Məhəmməd ağa burada Şərq dilləri məktəbinə daxil olur və elmi fəaliyyətə başlayır. Aldığı yüksək təhsil sayəsində 7 xarici dili mükəmməl bilən Məhəmməd ağa Parisdə yaşadığı dövrdə Fransa Kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərindən dərs deyir, eyni zamanda Sorbonna Universitetində fonetika sahəsində tədqiqat işləri ilə məşğul olurdu. O, bu fəaliyyətinə görə 1899-cu ildə Beynəlxalq Fonetika Cəmiyyətinin, 1900-cü ildə Beynəlxalq Asiya Cəmiyyətinin, 1903-cü ildə isə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvü seçilir. Məhəmməd ağanın *“Qurani-Kərim”i* orijinaldan fransız və rus dillərinə tərcüməsi o dövr üçün böyük bir hadisə idi.



*Məhəmməd ağa Şahtaxtinski*



*Elmira Şahtaxtinskaya*



*Oqtay Sadıqzadə*

1907-ci ildən etibarən Məhəmməd ağa Şahtaxtlının fəaliyyətində yeni bir mərhələ başlayır. Həmin il keçirilən seçkilər zamanı İrəvan quberniyasından Dövlət Dumasına deputat seçilən Məhəmməd ağa Azərbaycan tarixində ilk millət vəkillərindən biri kimi o dövrdə siyasi burulğanlar içərisində çapalayan Rusiyanın ictimai-siyasi həyatında yaxından iştirak etməklə bərabər, öz yurdunun haqlarını da cəsarətlə müdafiəyə qalxır. Bir faktı da qeyd edək ki, II Dövlət Dumasına seçkilərin keçirildiyi dövrdə ermənipərəst mətbuat deputatlığa namizəd Məhəmməd ağa Şahtaxtlının əleyhinə güclü təbliğat işləri aparırdı. “Faktı” qəzeti 1907-ci il 4 mart nömrəsində yazırdı: *“...Şahtaxtinskiyə kor-koranə sitayiş edənlər hər şeydən əvvəl onu unutmasınlar ki, o, əmlak senzinə malik olmayıbdır. Onun istər şəhərdəki, istər qəzadakı mülkləri lap çoxdan qızı Balabəyimə satılıb və hətta onun adı şəhər seçkilərində iştirak etmək hüququ olan şəxslərin siyahısından çıxarılıb”.*

Bütün bunlara baxmayaraq, bütövlükdə, Məhəmməd ağa Şahtaxtlının İrəvan quberniyasının Naxçıvan mahalından deputat seçilməsi o dövrdə regionda Azərbaycançılığın qələbəsi demək idi. II Dövlət Duması qısa müddətdə, yəni 1907-ci ilin fevral-iyun aylarında cəmi dörd-beş ay fəaliyyət göstərsə də, bu iclaslardakı çıxışları onun vətənpərvər ruhunu anlamaq baxımından xüsusi maraq doğurur. Müzakirələr zamanı Polşadan olan millət vəkili Dmovskinin: *“Asiya dövlətçiliyi dövlətin hər cür daxili düşmənini məhv etmək əsasında qurulmuşdur”* tezisinə etiraz əlaməti olaraq Məhəmməd ağa Şahtaxtlı: *“Yalandır! Asiyalılar – yaponlar və iranlılar daha çox azaddırlar, nəinki burada biz!”*

Millət vəkili, akademik, AMEA-nın vitse-prezidenti, Məhəmməd ağa irsinin yorulmaz tədqiqatçısı İsa Həbibbəyli yazır ki, *“Məhəmməd ağa Şahtaxtlının deputatlıq fəaliyyəti və millət vəkili kimi ehtiva etdiyi xüsusiyyətlər hazırkı dövrdə milli parlamentarizm dünyagörüşünün formalaşması üçün dəyərli nümunə sayıla bilər”.*

Məhəmməd ağa 1909-1912-ci illərdə Rusiya imperiyasının Türkiyədəki səfirliyində tərcüməçi-jurnalist kimi çalışarkən Osmanlı imperiyasının bir sıra dövlət rəsmiləri ilə əlaqələr yarada bildi. Bu dövrdə bəzi hərbi-siyasi əsərlərin və sənədlərin tərcüməsi ilə də məşğul olan Məhəmməd ağa Şahtaxtlının ən ciddi tərcümələrindən biri Osmanlı ordusunun baş komandanı Muxtar Paşanın yazdığı *“Anadoluda 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin tarixi”* əsəridir. Bu əsərdən tərcümələr 1913-1916-cı illərdə Rusiyanın *“Hərbi tarix jurnalı”*nda hissə-hissə çap edilib.

Məhəmməd ağa doğulduğu Şahtaxtı kəndini də unutmurdu: o, burda dövlət məktəbinin açılması üçün xeyli səy göstərir və nəhayət, Qarsda komendant işləyən Əbülfət ağa Şahtaxtinskinin köməyi ilə 1888-ci ilin oktyabrında ikisinifli zemstvo dövlət məktəbini açmağa nail olur. Böyük mütəfəkkir M.F.Axundzadənin layiqli davamçısı kimi Məhəmməd ağanın Azərbaycan dilçilik elminə verdiyi töhfələr də çox böyükdür. Onun əlifba islahatı sahəsində Şərq aləmində ilk tədqiqat əsəri olan *“Təkmilləşdirilmiş müsəlman əlifbeyi”* kitabı 1879-cu ildə Tiflisdə çap edilib.




Xalq rəssamı Oqtay Sadıqzadənin xatirələrindən: *“Söhbətlərimizdə arabir həyatımın çətin keçən günlərini – 15-16 yaşındaykən atamı xalq düşməni kimi həbsə atdıqlarını, bir il keçməmiş anamın da tutulub sürgünə göndərildiyini danışırdım ona... Atam 1937-ci ildə biryolluq getdi. Ondan sonra bizi çox incitdilər. Yeddi ilin ayrılığından dönən anam da yaralı qəlbimizi ovuda bilmədi. Sürgündən xəstə, üzgün qayıtmışdı. Üç ay sonra isə vəfat etdi. “Xalq düşməni”nin arvadı kimi... Elmiranın əmisi də Sovet hakimiyyətinin “təmizləmə” siyasətinin bəlasını çəkmişdi. Elmira kiçik yaşlarından evlərində “xalq düşməni”nin qohumu olmaq xofuyla yaşayan ata-anasını görüb. Yəqin, buna görə mənim dərdlərimə, ürəkağrılarıma nabələd deyildi”.*

### “Qeyrət” mətbəəsi, “Şərqi-Rus” qəzeti və “Molla Nəsrəddin” jurnalı

Məhəmməd ağa mətbuat tariximizdə də silinməz izlər qoyub. 1891-ci ildə yeganə anadilli mətbu orqan olan “Kəşkül” qəzetinin nəşri dayandırıldıqdan sonra dövrün ziyalıları yeni bir qəzet axtarışına çıxdılar. Onlardan Məhəmməd ağa Şahtaxtlı öz istəyinə çatan ilk ziyalı oldu. O, 1894-cü ildə “Tiflis” adlı qəzet buraxmaq üçün senzuraya müraciət etsə də, müsbət cavab ala bilmir. Daha sonra Naxçıvan ata mülkünün bir hissəsini sataraq “Qeyrət” adlı mətbəə açır və xatırlamağa dəyər ki, dünyaca məşhur “Molla Nəsrəddin” jurnalı bu mətbəədə çap olunurdu.

Məhəmməd ağanın nəşrinə başladığı “Şərqi-Rus” qəzeti ətrafında çox keçmir ki, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi dövrün tanınmış ziyalıları toplaşır. Qəzetdə ana dili ilə bağlı islahatlar, qadın azadlığı, hicab (örtük) məsələsi, maarifin yayılması, məktəblərdə təhsil sisteminin inkişaf predmetləri və sair məsələlərə bağlı çoxlu sayda yazılar dərc olunur. Məşhur qələm sahiblərindən Ömər Faiq Nemanzadə yazırdı: *“Sən, ey türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən. Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babı, şeyxi adları yox ikən sən var idin... Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu “yasaq” qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən sənin yurdunda var idi. Sənin öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaqlı hala salan ərəb əlifbası və yazısından əvvəl sənin göyçək əlifban və yazın var idi. Bəsdir, bəsdir, ey türk! Bir az ayıl, əl-ayağını bir az tərpət, vücudunu, varlıq ağacını soran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yarpaqlarını qır at, qurtul! Vücuduna Güneş, hava dəysin. Başını bir az yuxarı qaldır. Öz varlığının, öz vücudunun qiymətini bil. İndiyə qədər yadlar üçün, özgə varlıqlar, özgə vücudlar üçün özünü həlak etmisən. Barı bundan sonra da olsa, ayıl, özünə gəl, öz gününə çalış!”*

“Şərqi-Rus” Azərbaycan mətbuat tarixində bir çox yenilikləri ilə yadda qaldı. Bu qəzet Azərbaycanda Qərb standartları ilə çap olunan anadilli ilk gündəlik qəzet idi. M.Ə.Rəsulzadənin ilk mətbu əsəri olan “Bakıdan məktub”, Mirzə Cəlilin “Poçt qutusu” hekayəsi məhz bu qəzetdə çap olundu. Lev Tolstoyun yaradıcılığından Azərbaycan dilinə ilk tərcümələr də “Şərqi-Rus”un səhifələrində işıq üzü gördü. 1904-cü ildək nəşrə Məhəmməd ağa Şahtaxtlı rəhbərlik edirdi. Sonrakı dövrdə – 1905-ci ilin yanvarınadək isə qəzetin redaktoru C.Məmmədquluzadə oldu.

### Nəhənglərin davası

Azərbaycan mətbuat tarixində bir mərhələ olan “Kaspi” qəzetinin fəaliyyətindən danışarkən filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva qeyd edir ki, o, *“...milli ictimai fikrin formalaşmasında, milli istiqlal düşüncəsinin, milli birliyin, həmrəyliyin, milli təfəkkürün təşəkkülündə beyin mərkəzi idi”* və XIX əsrin sonu, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş xalq xadimlərinin böyük əksəriyyəti, o cümlədən Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Əhməd bəy Ağaoğlu, Məhəmməd ağa Şahtaxtlı, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Firidun bəy Köçərli, Soltan Məcid Qənizadə, Mirzə Cəlil, Eynəli bəy Sultanov, Mahmud Mahmudbəyov, Mehdi bəy Hacınski, Məhəmməd Tağı Sidqi, Teymur bəy Bayraməlibəyov kimi tariximizin silinməz simaları “Kaspi”də qələmlərini sınamışlar. O dövrdə “Kaspi” ilə paralel nəşrə başlayan “Şərqi-Rus” Azərbaycan həyatında həqiqi bir hadisəyə çevrildi. Lakin dövr ziddiyyətlərlə dolu idi və çox keçmədi ki, “Şərqi-Rus”la müəyyən ziyalılar arasında fikir ayrılıqları meydana gəldi, hətta bu, ciddi polemikaya səbəb oldu. Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağaoğlu qəzetin nəşrini alqışlasalar da, sonradan “Şərqi-Rus”un qarşıya qoyduğu məqsəd və vəzifələrlə bağlı narazılıqlarını bildirdilər və bu fikir çaxnaşmaları dövrün ən böyük ziyalılarını üz-üzə qoydu. Professor Vilayət Quliyevin *“üç aqilin davası”* adlandırdığı bu qarşıdurmada yaranan narazılığın kökünü Əhməd bəy Ağaoğlu belə ifadə edirdi: *“Şərqi-Rus” qarşıya qoyulan məqsədlər baxımından lazımi yüksəklikdə dayanmır. Qəzetin tonu etik və praktik baxımdan arzuedilməzdir, tutduğu istiqamət isə onu mütləq məhvə aparacaq”.*

İlk işartılar özünü belə büruzə verdi: məşhur xeyriyyəçi H.Z.Tağıyevin Tiflisdə bir müsəlman məktəbini himayəyə götürüb sonradan kömək göstərməməsi barədə “Şərqi-Rus”da dərc olunan tənqidi yazı Məhəmməd ağanın qələm dostlarının kəskin etirazına səbəb oldu. Bu narazılığa “Şərqi-Rus” qəzeti “Hacı Zeynalabdinin qələm qoçuları” adlı yazı ilə cavab verdi. Beləcə, bu məqam “Kaspi” və “Şərqi-Rus” qəzetlərində qızğın mübahisələrə gətirib çıxardı. Dövrün tanınmış ziyalılarından Məhəmməd Tağı Sidqi “Şərqi-Rus”da nəşr olunan “Təəssüf, yenə də təəssüf” məqaləsində Azərbaycan mütəfəkkirlərindən xahiş edirdi ki, Azərbaycan türk millətinin çar Rusiyasının əsarəti altında olduğu bir durumda onlar bir-birlərinə qarşı cəbhə açmasınlar: *“Məni lənət və söyüşə layiq bilib hər nə qədər ki, dilhaxınızdır söyün. Çünki mən dostların islahı və millətin səlahı üçün hər bir nifrin və narəba sözləri kəndi canıma nuş və guvara bilirəm. Mənim də qabaqca qəlbi nifrinim budur... Bundan sonra nə “Kaspi”də, nə də “Şərqi-Rus”da bu günə məlal gətirən və küdrət artıran bəndlər nəşr olunmasın, qonşularımızın hərəkətlərindən ibrət alayım. Qəzet yazan və qəzet oxuyan, xüsusən “Kaspi”də və “Şərqi-Rus”da nəşr olunan bəndləri oxuyan sair millətlərdən xəcalət çəkəlim. Dostları məhzun və düşmənləri məmnun etməyəlim”.* Çox şükür ki, ömrünü millətinə xidmətə sərf edən bu üç aqilin davası xoşluqla – barışıqla nəticələndi.

Xalq Cümhuriyyəti dövründə daha çox qəzetçilik və təhsil sahələrində fəaliyyət göstərən Məhəmməd ağa Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun xüsusi işlər üzrə müşaviri kimi Bakıda Şərq xalqları qurultayının keçirilməsinin əsas təşkilatçılarından biri olur, Bakı Dövlət Universitetinin yaradılmasında yaxından iştirak edir, bu ali məktəbdə Şərq dilləri və ədəbiyyatından mühazirələr oxuyur və sovet dövründə Azərbaycanda ilk professor adına layiq görülür.

Jurnalist, şərqşünas, dilçi, pedaqoq, ictimai xadim və daha nələr... Məhəmməd ağa Şahtaxtlının arzularla, təlatümlərlə, axtarışlarla dolu ömrü 1931-ci il dekabrın 12-də sona çatdı. O, dünyasını dəyişdi, təəssüf ki, dövrünün, özünün, nəslinin müəmmalı taleyi onu sonadək müşayiət etdi: bu böyük insanın məzarının yeri hələ də məlum deyil...

Xalq rəssamı Oqtay Sadıqzadənin xatirələrindən: *“Elə gecə yoxdur ki, onu yuxuda görməyim. Müxtəlif yaşlarında gəlir röyalarıma. Həmişə, təxminən, belə olur. Yuxuda görürəm ki, yanımdadır, harasa gedirik. Xoşbəxtik. Çünki heç bilmirəm, ölüb. Qəflətən itirirəm onu. Təşviş içində oyanıram. 35 il Elmira xəstəliklə, mənsə onsuz qala biləcəyimin qorxusuyla yaşadım. Bəlkə də, bu yuxular o vaxtların xofunun, təlaşının davamıdır...”*

***(Ardı var)***

**Bəxtiyar QARACA,**
***“Azərbaycan” qəzeti,***
***31 avqust 2014-cü il***



# Bura can evidir Azərbaycanın

Məndən Naxçıvanı soruşma, dostum,
Mən sənə nə deyim, axı tam olsun.
Gəzib görməmisən bu tərəfləri,
Qorxuram, nə desəm, natamam olsun.

Cənnətə bənzətsəm, inanarsanmı?
Dünyanın bəzəyi, – desəm, bəs necə?
Vaxt ayır, bir dəfə qonaq gəl bizə,
Məftun olacaqsan, inan, görüncə.

Səfər edək Sədərəyə, Şərura,
Kəngərli, Şahbuzu doyunca gəzək.
Bir gün də Babəkə, Culfaya gedək,
Görməsək, Ordubad bizdən küsəcək.

Məndən Naxçıvanı soruşma, dostum,
Bu gün bir başqadır, sabah bir başqa.
Naxçıvan nazlı bir gözəl kimidi–
Kim görsə, həmin an düşəcək eşqə.

Təki sən bir dəfə vaxt ayırıb gəl,
Qalxaq Batabata yay aylarında.
Bir anda özünü zənn edəcəksən
Nağılların padşah saraylarında.

Gül-çiçək ətrindən bihuş olursan,
Quşların nəğməsi oyadır səni.
Təmiz dağ havası, saf bulaq suyu
Getməyə qoymayır bura gələni.

Məndən Naxçıvanı soruşma, dostum,
O küçə dünəndir, bu küçə bu gün.
Burda həm tarix var, həm müasirlik,
Sabah köhnə olur bu gün gördüyün.

Hər gün yenilənir, hey təzələnir,
Burda hər qarışda min əziyyət var.
Çəkilən zəhmətdə, tökülən tərdə
Tarixə çevrilən əbədiyyət var.

Yollara yol verir sərt qayalıqlar,
Uzaq kəndlərə də yol çəkəcəklər.
Suyla cana gəlir şoran torpaqlar,
Yaşıl bağa dönür boz təpəciklər.

Məndən Naxçıvanı soruşma, dostum,
Bu yurd dahilərin vətənidi, bil.
Əcəmi memarlıq məktəbi açıb,
Sözə dəyər qatıb Cavidlə Cəlil.

Burda layla çalıb Möminə, Qutə,
Yaşayır Nəimi nəsihətləri.
Bəhruzun fırçası möcüzə kimi
Rənglərdə yaşadır həqiqətləri.

Nuh babam tarixin əlindən tutub
Onu yola salıb Gəmiqayadan.
Müqəddəs məkanı – Əshabi-Kəhfi
Bura layiq bilib ulu Yaradan.

Məndən Naxçıvanı soruşma, dostum,
Haçadağ salamlar səni gəlincə.
Düşmənin başına zərblə çırpılan
Naxçıvanın yumruğudur Əlincə.

Bura can evidir Azərbaycanın,
Günəş də hər səhər bura nur çilər.
Elə ona görə burda doğular
Ulu öndər kimi siyasətçilər.

Saysam, saya gəlməz mərd övladları,
Yüzdümü, mindimi adlı-sanlılar.
Burda vətən üçün can verər hamı,
Yurda pərvanədir naxçıvanlılar.

Məndən Naxçıvanı soruşma, dostum,
Bu qədər danışdım, söz dedim, fəqət,
Yenə anlatmadı doğma yurdumu,
Tamam vəsf etməyə, vallah, söz qəhət.

Ay dostum, Naxçıvan elə yerdi ki,
Gözünlə görməsən, təsvir edilməz.
Ay dostum, Naxçıvan elə yerdi ki,
Bir dəfə gəldinsə, bir də gedilməz.

**Elxan YURDOĞLU**

## Culfa Rayon Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib

*Sentyabr ayının 2-də Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Əlincə kəndində təbii qazdan, sudan, elektrik və ya istilik enerjisindən düzgün istifadə qaydalarına, həmçinin "Uşaqları qorumaq hər bir valideynin borcudur" mövzusuna həsr olunmuş tədbir keçirilmişdir.*

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə məsuliyyət" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir. Əli Adıgözəlov qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə də sakinlərə məlumat vermişdir.

Vurğulanmışdır ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə edilməklə cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət kimi təsbit edilmişdir. Həmçinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 276.2.8-ci maddəsinə əsasən, məişətdə istifadə edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilmədiyi hallarda kreditorun tələbi ilə borcun ödənilməsi məqsədi ilə kreditorun ərizəsinə əsasən məhkəmə tərəfindən məhkəmə əmri çıxarılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101-ci maddəsində isə su obyektlərindən və sudan istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyət və belə inzibati xətaları törədən fiziki, hüquqi və vəzifəli şəxslər barəsində inzibati cərimələr nəzərdə tutulmuşdur.

Sonra Culfa rayon prokurorunun köməkçisi Taryel İsmayılov çıxış edərək bildirmişdir ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində təsbit olunmuşdur. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələrinə xitam verilir.

Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Onlar uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Digər şəxslərlə müqayisədə öz uşaqlarının tərbiyəsində üstün hüquqlara malikdirlər. Uşaqların ümumi orta təhsil almalarına qədər onların maraqlarını nəzərə almaqla təhsil müəssisəsini və təhsil formasını seçmək hüququna malikdirlər. Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Vurğulanmışdır ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Kərəm HƏSƏNOV**

## Naxçıvanda Neolit və Eneolit dövrlərinə aid 20-dən çox yaşayış yeri aşkar olunub

*Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları Naxçıvançayın ətrafında Neolit və Eneolit dövrlərinə aid 20-dən çox yaşayış yeri aşkar ediblər.*

AMEA-nın mətbuat xidmətindən verilən xəbərə görə, alimlər Naxçıvanın Babək rayonu ərazisindəki Kültəpə yaşayış yeri və onun ətrafında aparılan qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələrinin eramızdan əvvəl V minilliyə aid olduğunu bildiriblər.

Azərbaycan-Fransa birgə tədqiqat qrupunun işlədiyi ərazidə fransalı arxeoloqları, əsasən, qədim yaşayış yerlərinin quruluşu maraqlandırır. Məqsəd Neolit dövrü Naxçıvanı haqqında daha ətraflı məlumat əldə etməkdir.

Qeyd edək ki, qazıntı sahəsindən götürülən nümunələr analizlərdən keçirilmək üçün Fransa və İtaliyaya göndəriləcək.

**Elnur KƏLBİZADƏ**

## Payız-qış mövsümünə hazırlıqla əlaqədar tədbirlər davam etdirilir

*Naxçıvan Şəhər Elektrik Şəbəkəsindən aldığımız məlumata görə, 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirilib, transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılıb, istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz olunub, dirəklərarası məsafələr normaya salınıb, kabellər, eləcə də məftillər yeniləri ilə əvəz edilib, 10/0,4 kilovoltluq elektrik xətləri çəkilib bərkidilib.*

Elektrik enerjisi verilişinin tənzimlənməsi və texniki itkinin minimuma endirilməsi məqsədilə Naxçıvan şəhərində müxtəlif gücə malik 2 ədəd yeni transformator yarımstansiyası quraşdırılıb, 3 ədəd transformator isə azgüclü transformatorla əvəz edilib.

Naxçıvan şəhərində 10 və 0,4 kilovoltluq elektrik hava xətlərinin yeraltı kabellərlə əvəz edilməsi istiqamətində işlər davam etdirilib, 11 min 334 metr uzunluğunda 10 kilovoltluq, 2 min metr uzunluğunda isə 0,4 kilovoltluq hava xətləri yeraltı kabellərlə əvəz edilib, istismar müddəti başa çatmış 94 ədəd elektrik dirəyi ləğv olunub.

Məlumatda bildirilir ki, elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsi işi də diqqət mərkəzində saxlanılıb, 171 abonentə yeni elektrik xətti çəkilib, elektrik sayğacları quraşdırılıb, texniki cəhətdən sıradan çıxmış 274 sayğac yenisi ilə əvəz edilib. Sayğacdankənar elektrik enerjisindən istifadə hallarının qarşısının alınması məqsədilə reydlər keçirilib, 30 halda sayğacdankənar xətt aşkar edilərək 12 min 250 manat məbləğində cərimə ödənilib. Cari ilin ilk 7 ayında, ümumilikdə, 23 milyon 477 min kilovat-saat elektrik enerjisi sərf edilib və bunun müqabilində 1 milyon 408,9 min manat elektrik enerjisi haqqı toplanılıb. Bu da verilmiş enerjinin dəyərinin 100,02 faizini təşkil edir.

**Xəbərlər şöbəsi**

## Sədərəkdə şahmat birinciliyinə yekun vurulub

Məktəblilərin yay tətilinin səmərəli keçirilməsinin təşkili məqsədilə Sədərək rayonunda şahmat üzrə yarış keçirilib. Sədərək Rayon Gənclər və İdman İdarəsi və Şahmat Məktəbinin birgə təşkil etdiyi "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında şahmat üzrə rayon birinciliyinə yekun vurulub. İsveçrə sistemi üzrə keçirilən birincilikdə 32 zəka sahibi qüvvəsini sınayıb.

Bütün rəqiblərini üstələyən Asif Dünyamalıyev birinciliyin qalibi adını qazanıb. Nurlan Adınalı və İlkin Musazadə isə digər iki pillədə qərarlaşıblar.

Sonda təşkilatçılar tərəfindən qaliblərə diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Qasımov İlkin Natiq oğlunun adına olan 0043433 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 747